Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5373/2022 19.09.2022

**ALİ MƏHKƏMƏ**

# Q Ə R A R D A D

## Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri Əliyev Ələsgər Əliabbas oğlu (məruzəçi), Əhmədova Mehparə Tofiq qızı və Xəlilov İsmayıl Kamil oğlundan ibarət tərkibdə,

Qarşılıqlı iddiaçı Cavabdeh1 tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

**M Ü Ə Y Y Ə N E T D İ :**

Gədəbəy Rayon Məhkəməsinin 2(042)-31/2022 saylı, 03 mart 2022-ci il tarixli qətnaməsi ilə İddiaçı cavabdehlər Cavabdeh1, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinə və Cavabdeh3nə qarşı "qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin, çıxarışın ləğv olunması və miras əmlaklara payın müəyyən edilməsi" tələbinə dair ilk iddiasının qismən təmin edilməsi, qarşılıqlı iddiaçı (ilk iddia üzrə cavabdeh) Cavabdeh1 qarşılıqlı cavabdeh (ilk iddia üzrə iddiaçı) İddiaçı qarşı "miras əmlakdan məcburi payın müəyyən edilməsi" tələbinə dair qarşılıqlı iddiasının rədd edilməsi qət edilmişdir.

Gəncə Apellyasiya Məhkəməsi mülki kollegiyasının 2(104)-1750/2022 saylı, 24 iyun 2022-ci il tarixli qətnaməsi ilə Gədəbəy Rayon Məhkəməsinin 2(042)-31/2022 saylı, 03 mart 2022-ci il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılması qət edilmişdir.

Qarşılıqlı iddiaçı Cavabdeh1 vəkili Vəkil2 kassasiya şikayəti verərək Gəncə Apellyasiya Məhkəməsi mülki kollegiyasının 24 iyun 2022-ci il tarixli qətnaməsinin ləğv edilərək işin təkrar apellyasiya baxışına göndərilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir.

Aşağıdakı əsasa görə Gəncə Apellyasiya Məhkəməsi mülki kollegiyasının 24 iyun 2022-ci il tarixli qətnaməsindən verilmiş kassasiya şikayəti icraata qəbul edilməməlidir.

Belə ki, iş materiallarından müəyyən olunur ki, kassasiya şikayəti Vəkil2 tərəfindən imzalansa da, Cavabdeh1 tərəfindən imzalanmamış, iş materiallarına vəkilin səlahiyyətlərini təsdiq edən etibarnamə əlavə edilməmişdir.

Azərbaycan Respublikası MPM-nin 407.3-cü maddəsinin tələbinə görə şikayət onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və şikayəti tərtib etmiş vəkil

tərəfindən imzalanmalıdır. Qanuni nümayəndə və ya nümayəndə tərəfindən verilən şikayətə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

Həmin Məcəllənin 408.1.1-ci maddəsinin tələbinə görə kassasiya şikayəti bu Məcəllənin 402-ci və 407.1-ci maddələrinin tələblərinə cavab vermirsə, imzalanmamışsa, yaxud hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanmışsa qaytarılır.

Göstərilənlərə əsasən kassasiya şikayəti qeyri-mümkün hesab edilməli və mülki iş apellyasiya instansiyası məhkəməsinə qaytarılmalıdır.

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 408-ci maddəsini rəhbər tutaraq, məhkəmə tərkibi

**Q Ə R A R A A L D İ :**

Qarşılıqlı iddiaçı Cavabdeh1 tərəfindən Gəncə Apellyasiya Məhkəməsi mülki kollegiyasının 2(104)-1750/2022 saylı, 24 iyun 2022-ci il tarixli qətnaməsindən verilmiş kassasiya şikayəti qeyri-mümkün hesab edilsin və kassasiya şikayəti geri qaytarılması üçün mülki işlə birlikdə Gəncə Apellyasiya Məhkəməsinə göndərilsin.